**AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİ YANINDA**
**ELMİN İNKİŞAFI FONDU**

Bakı şəhəri 3 noyabr 2014-cü il

# Azərbaycan Respublikasının Prezidenti yanında Elmin İnkişafı Fondunun ölkədə bir sıra ali təhsil müəssisələrində aparılan əhəmiyyətli elmi araşdırma və tədqiqatların dəstəklənməsinə yönəlmiş layihələrin qrantlar yolu ilə maliyyələşdirilməsi üçün 2014-cü ildə “Universitet qrantı” məqsədli müsabiqəsinin (EİF/MQM/Universitet-1-2014-5(20)) keçirilməsi haqqında

## E L A N

Azərbaycan Respublikasının Prezidenti yanında Elmin İnkişafı Fondunun (bundan sonra: “Elmin İnkişafı Fondu” adlandırılacaqdır) təşkil edərək keçirdiyi qrant müsabiqələrində Azərbaycan Milli Elmlər Akademiyasından, ali təhsil müəssisələrindən, nazirliklərin nəzdində fəaliyyət göstərən elmi-tədqiqat institutlarından, dövlət qurumlarından, qeyri-hökumət təşkilatlarından, elm ilə əlaqəli digər qurumlardan alim və mütəxəssislər qrupu, həmçinin fərdi şəkildə alimlər (fiziki şəxslər) bərabər əsaslarla və şəffaflıq şəraitində iştirak edirlər.

Bu qurumları təmsil edən alim və mütəxəssislərdən təşkil edilmiş müvəqqəti yaradıcı kollektivlərin təqdim etdikləri qrant layihələrinə isə müsabiqələr zamanı üstünlük verilir.

Təhsil müəssisələri Elmin İnkişafı Fondunun qrant müsabiqələrində kifayət qədər fəal iştirak edirlər. 2010-2014-cü illərdə Fond tərəfindən təşkil edilərək keçirilmiş 17 müxtəlif xarakterli müsabiqənin nəticələrinin statistik analizi göstərir ki, 315 qalib qrant layihəsinin 94-nün (ümumi sayın 29.84%-ni, onlara ayrılan maliyyə həcmi isə ümumi maliyyələşdirilmənin 14.22%-ni təşkil edir) rəhbərləri 19 təhsil müəssisəsini (14 universitet, 4 təhsil akademiyası və 1 lisey olmaqla) təmsil edirlər. Adıçəkilən 315 layihə üzrə rəhbər və icraçıların ümumi sayının 21.5%-i ali təhsil qurumlarına aiddir.

Elmi tədqiqatların qrantlar yolu ilə maliyyələşdirilməsinin effektivliyi nəzərə alınmaqla, bir sıra ali təhsil müəssisələrində elmi-tədqiqat işlərinin aparılması üçün büdcədə nəzərdə tutulmuş maliyyə vəsaitinin qrantlar şəklində həmin qurumlara ünvanlanması nəzərdə tutulmuşdur.

Ölkənin bir sıra ali təhsil müəssisələrində aparılan əhəmiyyətli elmi araşdırma və tədqiqatların daha yüksək səviyyədə dəstəklənməsinə yönəlmiş layihələrin qrantlar yolu ilə ünvanlı şəkildə maliyyələşdirilməsi məqsədi ilə Azərbaycan Respublikasının Prezidenti yanında Elmin İnkişafı Fondu, Himayədarlar Şurası, Azərbaycan Respublikasının Təhsil Nazirliyi və Azərbaycan Respublikasının Maliyyə Nazirliyi ilə razılaşdırmaqla 2014-cü ildə məqsədli "Universitet qrantı" müsabiqəsini (EİF/MQM/Universitet-1-2014-5(20)) aşağıdakı şərtlər daxilində

ELAN EDİR:

**Müsabiqəyə aşağıdakı maliyyə həcmli fundamental-tətbiqi xarakterli layihələr qəbul olunur:**

- Orta (10 000 – 50 000 manat arasında) maliyyə həcmli layihələr;
- Böyük (50 000 – 100 000 manat arasında) maliyyə həcmli layihələr.

**Elmin İnkişafı Fondu tərəfindən müsabiqə üzrə maliyyələşdirmənin cəmi həcmi 910 000 (doqquz yüz on min) manat nəzərdə tutulmuşdur.**

**Azərbaycan Respublikasının Təhsil Nazirliyi** müsabiqənin keçirilməsinə təşkilati dəstək göstərəcəkdir.

Müsabiqə üzrə ekspertizanın nəticələri əsas götürülməklə, ilk növbədə aşağıdakı ali təhsil müəssisələrindən təqdim olunmuş layihələr maliyyələşdiriləcəkdir:

1. Azərbaycan Dövlət Neft Akademiyası;
2. Azərbaycan Tibb Universiteti;
3. Azərbaycan Dövlət Aqrar Universiteti;
4. Azərbaycan Dövlət İqtisad Universiteti;
5. Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət İdarəçilik Akademiyası.

Yuxarıda adıçəkilən ali təhsil müəssisələrindən layihələr daxil olmadıqda və ya texniki/elmi ekspertiza mərhələsindən keçmədikdə, digər ali təhsil müəssisələrindən müsabiqəyə daxil olmuş layihələrin müsabiqənin ümumi büdcəsi və şərtləri daxilində maliyyələşdirilməsi də nəzərdə tutulur.

**Müsabiqədə iştirak üçün müvafiq ali təhsil müəssisəsinin rəhbərliyinin təqdimatı tələb olunur.**

**Elmin İnkişafı Fondunun hal-hazırda yerinə yetirilən digər layihələrində iştirak edən layihə rəhbərləri və icraçıları "Universitet qrantı" müsabiqəsində iştirak edə bilməzlər.**

**Tətbiqi gözlənilən layihələrə üstünlük veriləcəkdir.**

**Müsabiqənin prioritet istiqamətləri:**

Elmi-tədqiqat layihələri Elmin İnkişafı Fondunun Təsnifatı üzrə müxtəlif elm sahələri və istiqamətlərini əhatə etməklə və layihənin təqdim olunduğu hər bir ali təhsil müəssisəsinin elmi prioritetlərini əsas götürməklə təqdim olunmalıdır. Digər tərəfdən, aşağıdakı ümumiləşdirilmiş prioritetlər üzrə təqdim edilən layihələrə də üstünlük veriləcəkdir:

- Azərbaycan Respublikası əhalisinin sağlamlığının və xəstəliklərinin regional xüsusiyyətləri: monitorinq, epidemiologiya, müalicə və profilaktika üsullarının təkmilləşdirilməsi;
- Respublikada ana və uşaqların sağlamlığı problemləri, erkən əlilliyə və uşaq ölümünə səbəb olan patoloji halların aşkar edilməsi və profilaktik tədbirlərin hazırlanması və ya mövcud üsulların təkmilləşdirilməsi;
- Azərbaycanda ekoloji və təbii amillərin orqanizmə təsir mexanizminin öyrənilməsi, yerli xammal əsasında yeni dərman preparatlarının, kompleks müalicə və reabilitasiya üsullarının işlənilib hazırlanması;
- Hüceyrə, toxuma və orqanların normada və patologiyada funksional və morfoloji xüsusiyyətləri;
- Ölkədə ən çox yayılmış parodont və diş xəstəliklərinin aşkar edilməsi və müalicəsi üçün profilaktik tədbirlərin hazırlanması;
- Molekulyar biologiya və biotexnologiyalar;
- Kənd təsərrüfatının inkişaf etdirilməsinə sistemli yanaşma və dayanıqlı kənd təsərrüfatının əsas prinsipləri;
- Ölkənin sosial-iqtisadi inkişaf proqramında kənd təsərrüfatı məhsullarının artırılması üzrə nəzərdə tutulmuş göstəricilərin reallaşdırılmasının elmi təminatı; regionlar üzrə təsərrüfat fəaliyyətinin prioritet istiqamətləri;
- Torpağın münbitliyinin artırılması, qorunması və meliorasiyası;
- Kənd təsərrüfatı bitkilərinin becərilməsi, istehsalı, emalı və saxlanması;
- Kənd təsərrüfatı heyvanlarının genefondunun toplanması və tətbiqi əsasında yeni cinslərin yaradılması, damazlıq işlərinin təşkili, məhsuldarlığın artırılması texnologiyası; heyvanlarda infeksiya xəstəlikləri ilə mübarizə;
- Meyvə, tərəvəz və subtropik bitki ehtiyatları genefondunun yaradılması və yerli şərait üçün becərmə texnologiyasının işlənməsi;
- Bitkiçilikdə və heyvandarlıqda ekoloji cəhətdən təmiz məhsul təmin edən təkmilləşdirilmiş texnika və elektrotexniki vasitələrin işlənilməsi; aqrar sahədə alternativ enerji mənbələrindən istifadə;
- Müxtəlif dənli, taxıl və paxlalı bitkilərin perspektiv məhsuldar formalarının alınması, öyrənilməsi, sınaqdan keçirilməsi və müxtəlif ekoloji şəraitdə onların toxumçuluğunun təşkili;
- Aqrar sahədə sahibkarlığın inkişafının istifadə və idarə mexanizminin problemləri və menecment;
- Alternativ enerji mənbələrinin kənd təsərrüfatında tətbiq sahələrinin araşdırılması;
- Cənubi Xəzər hövzəsi neft-qaz yataqlarının axtarış-kəşfiyyat, lotoloji-geofiziki və geoloji-mədən tədqiqat üsullarının təkmilləşdirilməsi;

- Qeyri-ənənəvi karbohidrogen ehtiyatlarının mənimsənilməsi texnologiyalarının işlənilməsi;
- Çətin çıxarılan karbohidrogen ehtiyatları olan yataqların mənimsənilməsi üçün proqressiv enerji qənaətli texnologiyaların işlənilməsi; dəniz şəraitindəki karbohidrogen ehtiyatlarının mənimsənilməsi və emalının proses, maşın və avadanlıq təminatının həlli;
- Azərbaycanın yeraltı mineral su ehtiyatlarının qiymətləndirilməsi və onlardan səmərəli istifadənin perspektivliyi;
- Yeni kimyəvi maddə və materialların sintezi, müvafiq ekoloji təmiz texnologiya və proseslərin yaradılması və tədqiqi;
- Kristallokimya və kimyəvi texnologiyalar;
- Nanotexnologiyalar və yeni konstruksiya materiallarının yaradılması üsullarının işlənilməsi;
- Yanacaq-enerji kompleksi, kimya və maşınqayırma sənaye sahələrinin innovativ inkişaf strategiyasının işlənilməsi; yanacaq-enerji komplekslərində informasiya texnologiyalarının tətbiqi ilə nəzarət, diaqnostika və idarəetmə sistemlərinin intellektuallaşdırılması; enerji təhlükəsizliyi problemləri;
- Yüksək texnologiyalı elektroenergetika sistemlərinin yaradılması, onların texniki təminatı və avtomatlaşdırılması;
- Müxtəlif təyinatlı texnoloji proseslərin riyazi modelləşdirilməsi, optimallaşdırılması və idarə edilməsinin alqoritm və proqram təminatlarının işlənilməsi;
- Azərbaycanın dinamik inkişaf problemləri;
- Ölkənin post-industrial cəmiyyətə keçidinin təmin edilməsi problemləri;
- Ölkənin geoiqtisadi inkişaf modelinin qurulması problemləri;
- Davamlı inkişafın planlaşdırılması və idarəedilməsi;
- Elm-təhsil-innovasiya problemləri.

Elmin İnkişafı Fondu müsabiqəyə təqdim olunmuş layihələrin ekspertizası işini və qalib layihələrin vaxtaşırı monitorinqini təşkil edəcəkdir.

Müsabiqədə iştirak etmək üçün ərizələr, ərizəyə əlavə olunan müvafiq sənədlər və digər müşayiətedici materiallar **2014-cü il 3 noyabr** tarixindən başlayaraq qəbul olunur.

Müsabiqədə iştirak etmək üçün ərizələrin, ərizəyə əlavə olunan müvafiq sənədlərin və digər müşayiətedici materialların qəbulu üçün son tarix **2014-cü il 3 dekabr** saat 17:00-dır.

Müsabiqənin nəticələrinin 2015-ci ilin 1-ci rübündə açıqlanması planlaşdırılır.

Qrantların verilməsi üzrə müsabiqənin keçirilmə prinsipləri, müsabiqədə iştirak etmək üçün ərizələr, ərizəyə əlavə olunan müvafiq sənədlər və digər müşayiətedici materialların verilməsi və qeydiyyatı qaydaları, layihələrin ekspertizasının ümumi qaydaları, layihələrin həyata keçirilməsi şərtləri, müsabiqələrin xüsusiyyətləri də daxil olmaqla qrantların verilməsi üzrə müsabiqənin keçirilməsi qaydaları ilə Azərbaycan Respublikasının Prezidenti yanında Elmin İnkişafı Fondunun 2010-cu il 25 iyun tarixli Q-1 nömrəli Qərarı ilə təsdiq edilmiş “Elmi-tədqiqat proqramlarının, layihələrinin və digər elmi tədbirlərin maliyyələşdirilməsi məqsədi

ilə qrantların verilməsi üzrə müsabiqələrinin keçirilməsi Qaydaları"nda (http://sdf.gov.az) tanış olmaq olar.

Müsabiqədə iştirak etmək istəyən şəxslərə "Elmi-tədqiqat proqramlarının, layihələrinin və digər elmi tədbirlərin maliyyələşdirilməsi məqsədi ilə qrantların verilməsi üzrə müsabiqələrinin keçirilməsi Qaydaları" ilə tam tanış olduqdan sonra müvafiq ərizə və sənədləri tərtib etmələri tövsiyə olunur.

Qrantların verilməsi üzrə müsabiqədə iştirak etmək üçün ərizə və müvafiq sənədlər (Microsoft Word formatında) Elmin İnkişafı Fondunun internet saytının (http://sdf.gov.az) "Qrant müsabiqələri" bölməsindən əldə edilə bilər.

Bütün layihələr, bir qayda olaraq, **Azərbaycan** (2 nüsxə) və **ingilis** (1 nüsxə) (xarici ekspertlərdən rəy alınması üçün) dillərində tərtib edilməlidir. Müşayiətedici materiallar (sənədlərin surətləri, zəmanət məktubları və b.) isə 1 nüsxədə təqdim olunur.

Layihələr üç formatda (kağız üzərində, elektron məlumatdaşıyıcılarına yazılmış şəkildə və elektron variantın elektron ünvana göndərilə bilməsi üçün elektron fayllar şəklində) aşağıdakı üsullarla təqdim olunmalıdır:

1. Müsabiqədə iştirak etmək üçün layihə rəhbəri tərəfindən imzalanmış ərizənin, ərizəyə əlavə olunan sənədlərin və digər müşayiətedici materialların A4 formatlı ağ kağızda çap olunmuş variantını (Azərbaycan dilində 2 nüsxə, ingilis dilində isə 1 nüsxə) və elektron məlumatdaşıyıcılarına (CD, DVD və s.) yazılmış versiyasını birlikdə:

- Elmin İnkişafı Fondunun icraçı direksiyasının ünvanına **(AZ-1069, Bakı şəhəri, Atatürk prospekti, 48B)** (sifarişli üsulla) poçt vasitəsilə göndərmək yolu ilə:
- və ya Elmin İnkişafı Fondunun icraçı direksiyasının yuxarıda göstərilən ünvanda yerləşən **inzibati binasına** həftənin iş günlərində (bazar ertəsi – cümə) saat 10:00-dan 17:00-dək birbaşa çatdırmaqla və qeydiyyatdan keçirmək yolu ilə (elektron-poçt göndərişi zamanı mümkün itmələrdən və adi poçt daşınması zamanı təsadüfi mexaniki zədələrdən yayınmaq üçün);

2. Müsabiqədə iştirak etmək üçün ərizənin, ərizəyə əlavə olunan sənədlərin və digər müşayiətedici materialların elektron variantını (Microsoft Word formatında elektron fayllarını) Elmin İnkişafı Fondunun **elektron-poçt ünvanına** (qrant@elmfondu.az) göndərmək yolu ilə (bu zaman elektron məktubun "mövzu" ("subject") hissəsində aşağıdakı yazılışdan istifadə olunmalıdır: "EİF/MQM/Universitet-1-2014-5(20) - *Layihə rəhbərinin soyadı və adı - Elm sahəsinin adı*").

Layihənin elektron variantı təqdim olunmadığı halda, həmçinin Microsoft Word formatında olan Formalara özbaşına düzəlişlər edildikdə layihə birmənalı olaraq texniki ekspertiza mərhələsindən keçmir.

Ərizənin, ərizəyə əlavə olunan sənədlərin və digər müşayiətedici materialların elektron variantının kağızda olan variantına tam uyğun olmasına məsuliyyəti layihə rəhbəri daşıyır.

Müsabiqənin keçirilməsi qaydaları və müddəti çərçivəsindən kənar təqdim olunan layihələr müsabiqənin texniki ekspertiza mərhələsindən qəti olaraq keçmir və elmi ekspertiza mərhələsinə buraxılmır. Müsabiqəyə təqdim edilmiş sənədlər geri qaytarılmır. Müsabiqədə iştirak məqsədilə, o cümlədən layihələrin ekspertizası mərhələlərində saxta

sənəd, imza və məlumatların təqdim olunması layihənin elmi ekspertizadan kənarlaşdırılmasına səbəb olur.

Müsabiqəyə təqdim edilmiş bütün layihələrin ideyasının obyektiv formada orijinal ifadəsi müəlliflik hüququnun obyekti kimi Azərbaycan Respublikasının Müəllif Hüquqları Agentliyində qeydiyyatdan keçiriləcəkdir.

Müsabiqədə iştirak etmək üçün ərizələrin və ərizəyə əlavə edilən müvafiq sənədlərin, Müsabiqələrin keçirilməsi Qaydalarının əldə olunması ilə bağlı problemlər yarandığı təqdirdə Elmin İnkişafı Fondunun icraçı direksiyası (Bakı şəhəri, Nərimanov rayonu, Atatürk prospekti, 48B) ilə birbaşa əlaqə saxlanılması tövsiyə olunur. Əlaqə telefonu: (012) 563-61-11, elektron-poçt ünvanı: qrant@elmfondu.az

Sualların elektron poçt ünvanına göndərilməsi təqdir olunur. Digər tərəfdən, sənədlərin qəbulu üçün nəzərdə tutulmuş müddət ərzində qrant iddiaçılarına kömək və sualların cavablandırılması məqsədilə **məsləhət seminarlarının** (ali təhsil müəssisələrində səyyar seminarlar daxil olmaqla) keçirilməsi nəzərdə tutulmuşdur. Bu barədə əlavə məlumat Fondun internet səhifəsində dərc olunacaqdır.

***Elmin İnkişafı Fondunun icraçı direksiyası***